## Statistika sahəsində elektron xidmətlər genişlənir

Ölkədə dövlət orqanlarının xidmətlərinin elektron formada həyata keçirilməsinin əhatə dairəsi genişlənir. Ölkə başçısının 23 may 2011-ci il tarixli «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» fərmanı bu sahədə həyata keçirilən tədbirlərin intensivliyini təmin etmişdir.

Digər dövlət qurumları kimi, Dövlət Statistika Komitəsi də xidmətlərin elektronlaşması istiqamətində genişmiqyaslı tədbirlər keçirir. Belə ki, komitənin elektron xidmətlər siyahısına statistik hesabatların elektron formada təqdim olunması da daxil edilib. Statistik hesabatlar həm elektron formada, həm də kağız daşıyıcılarla qəbul edilir. Bu xidmət dövlət müşahidələrinin aparılması üçün lazım olan məlumatların statistik vahidlər, ailə-kəndli və ev təsərrüfatları üçün təqdim olunan məlumatların elektron sənəd formasında təqdim edilməsinə imkan yaradır. Xidmət həm real vaxt, həm də «off-line» rejimdə həyata keçirilir. Real vaxt rejimində xidmətin icra müddəti hesabat məlumatlarının daxil edilməsi və onun informasiya sistemi tərəfindən emalı vaxtına bərabərdir. «Off-line» rejimdə xidmətin icra müddəti müvafiq hesabat formalarının elektron versiyasının statistik vahidin kompüterə yüklənməsi, məlumatların daxil edilməsi, onların Dövlət Statistika Komitəsinin elektron ünvanına göndərilməsi vaxtı qədər müəyyənləşdirilir. Statistik vahid bütün statistika hesabatlarını statistika orqanlarına gəlmədən elektron formada təqdim edir. Statistik vahidlərə düşən informasiya yükü və vaxt itkisi azaldılır, müasir informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə məlumatların təqdim edilmə üsulu asanlaşdırılır, məmur və vətəndaş münasibətlərində şəxsi ünsiyyət halları aradan qaldırılır.

Xidmətin həyata keçirilməsi ödənişsizdir. Xidmət bütün statistik vahidlər üçün açıqdır, ölkədə və ölkə hüdudlarından kənarda olan hüquqi və ya fiziki şəxsin nəzərdə tutulmuş xidmətdən istifadəsi üçün məhdudiyyət yoxdur. Bu sahədə avtomatlaşdırılmış real vaxt rejimli elektron xidmət «www.azstat.org/f_st_relat/az/index.shtml», «off-line» rejimində hesabatların təqdim edilməsi üçün isə yerli statistika orqanlarının internet ünvanları «www.azstat.org/e_unvan» səhifəsində verilmişdir.

Elektron xidmətdən istifadə etmək üçün hüquqi və fiziki şəxslər müvafiq müqavilə və ərizə formasını komitənin veb-səhifəsindən yükləməli, təsdiq etməli, yerləşdiyi ərazi üzrə yerli statistika orqanına skan edilmiş formasını göndərməlidir. Yerli statistika orqanları ərizənin və müqavilənin qəbulundan sonra 2 gün ərzində elektron sənəd mübadiləsi üçün zəruri olan işləri həyata keçirir və bununla bağlı statistik vahidə bildiriş göndərilir.

Hesabatların təqdim edilməsi üçün sorğu internet ünvandan götürülmüş ərizə formasını dolduraraq müqavilə ilə birlikdə yerli statistika orqanlarına göndərilməsi nəticəsində formalaşdırılır. Təqdim edilən sənədlər qəbul olunur, qeydə alınır və icraya verilir. Sənədlərdə çatışmazlıqlar aşkar edildikdə ərizəçiyə 2 gün ərzində yazılı məlumat verilir. Onlar aradan qaldırıldıqdan və sənədlər təkrar təqdim edildikdən sonra müvafiq qərar qəbul olunur.

Elektron xidmətdən imtina halları isə təqdim olunmuş hesabat məlumatlarında səhvlər olduqda baş verir. Təqdim olunmuş hesabat məlumatları səhvsiz olduqda elektron xidmətin göstərilməsindən imtina edilə bilməz. Statistik vahidin təqdim etdiyi hesabatlar əsasında ölkənin sosial-iqtisadi, ekoloji, demoqrafik vəziyyəti, elmi-texniki inkişafı, ölkə, region və sahə səviyyəsində qarşılıqlı təsərrüfat əlaqələrini, struktur dəyişikliklərini və istehsalın səmərəliliyini səciyyələndirən statistik məlumatlarla bağlı statistik məlumatlar hazırlanır.

AYTƏN